# ÖLKƏMİZİ TANIYAQ

## Tur-aksiyada iştirak edəcək məktəblilərlə görüş keçirilmişdir

Qəbələ Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri-



RİH başçısının müavini başçısının müavini Ətayə Osmanovanın "Ölkəmizi tanıyaq" tur-aksiyasında iştirak edəcək məktəblilərimizlə görüşü keçirilmişdir.

Görüşdə artıq altıncı ildir ki, Prezident İlham Əliyevin tövsiyəsinə əsasən keçirilən məktəblilərin "Ölkəmizi tanıyaq" devizi altında tur-aksiyalarının bu gün ənənə halını aldığı bildirilmişdir. Qeyd olunmuşdur ki, layihənin əsas məqsədi şagirdlərin ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış edilməsi, Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində respublikamızda əldə edilən sosial-iqtisadi inkişaf, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yarat-



maqdır.

RİH başçısının müavini diqqətə çatdırmışdır ki, bu il martın 15-dən 18-dək keçirilən tur-aksiyada Gəncə, Goranboy, Gədəbəy, Göygöl, Samux, Şəmkir, Xocalı, Kəlbəcər və Tərtər məktəbliləri Qəbələyə səfər etmişlər.

23-26 tarixlərində keçiriləcək tur-aksiyalada isə rayonumuza Ağcabədi, Ağdam, Ağstafa, Beyləqan, Bərdə, Daşkəsən, Qazax, Göyçay Tovuz məktəblilərinin gələcəyini vurğulamışdır.

Həmin tarixdə Qəbələdən də 40 nəfər məktəblinin tur-aksiyaya qatılacağını qeyd edən RİH başçısının müavini bildirmişdir ki, şagirdlərimizə səfər edəcəkləri Gəncə, Şəmkir, Göygöl, Tovuz, Qazax və Ağstafa rayonlarında aparılan genişmiqyaslı quruculuq işləri, maddi-mənəvi irsin qorunması və təbliği istiqamətində həyata keçirilən önəmli layihələr barədə geniş məlumat veriləcək, onlar Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanlarını gəzəcəklər.

Ətayə Osmanova səfər çərçivəsində şagirdlərin iştirakı ilə keçiriləcək intellektual oyunlarda məktəblilərimizə fəallıq göstərmələrini tövsiyə etmiş və yüksək nəticələrə nail olmaları üçün onlara uğurlar arzulamışdır.

Tədbirdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, Çuxur Qəbələ kənd tam orta məktəbin müəllimi Lətifə Abdullayeva, valideyin Rövşən Məmmədov, Cığatelli kənd tam orta məktəbin X sinif şagirdi Pakizə Mustafayeva, Tüntül kənd tam orta məktəbin IX sinif şagirdi Aynaz Babayeva və başqaları çıxış edərək ölkə rəhbəri İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiyasının təşkilinə görə minnətdarlıqlarını ifadə etmişlər.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

## Məktəblilərimiz qərb bölgəsinə yola salınmışlar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən respublikamızın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün keçirilən "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində martın 23-də rayonumuzun məktəbliləri Gəncə, Şəmkir, Göygöl, Tovuz, Qazax, Ağstafa rayonlarına tur-səfərlərinə yola salınmışlar.

Tur-aksiya iştirakçıları yola düşməzdən əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymuşlar.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

## Qəbələ məktəbliləri Şəmkir rayonu ilə tanış olublar

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın iştirakçıları olan Qəbələ məktəbliləri martın 23-də Tovuz şəhərinə gəliblər.

Tur-aksiya iştirakçıları Tovuz şəhərində "Ayan Palace" mehmanxanasında nahar etdikdən sonra Şəmkir rayonuna yola düşüblər.



Məktəbliləri Heydər Əliyev Mərkəzinin qarşısında Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, icra aparatının və şəhər ictimaiyyətinin nümayəndələri qarşılayıblar.

Məktəblilər əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Sonra onlar Şəmkir rayonu ilə tanış olublar.

**"Qəbələ"**

## Qəbələ məktəbliləri birinci yerə çıxıb

*Tur-aksiya iştirakçıları arasında keçirilən "Nə? Harada? Nə zaman?" intellektual oyununda uğurla çıxış edən məktəblilərimiz öz bilik və bacarıqlarını yüksək səviyyədə nümayiş etdirmək imkanı qazanıblar.*

*Gərgin mübarizə şəraitində keçən yarışda Qəbələ rayonunu təmsil edən "Qafqaz" komandası I yerə, Şamaxı rayonunu təmsil edən "Qafqaz-1" komandası II yerə, Oğuz rayonunu təmsil edən "Oğuz-2" komandası isə III yerə layiq görülmüşdür.*

*Qaliblərə kubok, medal və sertifikatlar təqdim olunmuşdur.*

*"Ölkəmizi tanıyaq" devizi altında respublikanın qərb bölgəsinə səfər edən məktəblilər 26 mart tarixdə xoş təəssüratlarla Qəbələ rayonuna geri dönmüşlər.*

***"Qəbələ"***

## Məktəblilərimiz zəngin təəssüratlarla ayrılıblar

"Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici tur-aksiya iştirakçıları olan Qəbələ məktəbliləri martın 24-də Göygöl rayonu və Gəncə şəhəri ilə tanış olublar.

Şagirdləri Göygöl rayon icra hakimiyyətinin, mədəniyyət və təhsil şöbələrinin, şəhər ictimaiyyətinin nümayəndələri qarşılayıb. Qarşılanma mərasimində onlara rayon haqqında geniş məlumat verilib.

Qəbələ məktəbliləri şəhərlə tanışlığa Heydər Əliyev Mərkəzindən başlayıblar, burada ulu öndərin həyat və fəaliyyəti ilə tanış olublar. Daha sonra onlar Bayraq meydanı, Gənclər Mərkəzi, Alman məbədi, tarix-diyarşünaslıq muzeyi, Alman evləri, Hacıkənd qəsəbəsi və Göygöl Milli Parkı ilə tanış olublar.



Günün ikinci yarısı aksiya iştirakçıları Gəncə şəhərinə səfər ediblər. Zəfər Tağı önündə qarşılanan şagirdlərə rayon icra hakimiyyətinin nümayəndələri tərəfindən Gəncə şəhəri haqqında ətraflı məlumat verilib. Aksiya iştirakçıları Heydər Əliyev adına Park, Heydər Əliyev Mərkəzi, Qədim qala divarları, "İmamzadə" Kompleksi, Nizami Gəncəvinin məqbərəsi və Nizami Gəncəvi adına mərkəzlə yaxından tanış olublar.

Məktəblilərimiz "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən ağacəkmə aksiyasında iştirak ediblər. Bununla da məktəblilərin Göygöl rayonuna və Gəncə şəhərinə səfərləri zəngin təəssüratlarla başa çatıb.

**"Qəbələ"**